

Toplam müddət

**60 dəq**

Yaş həddi

**9-14 yaş**

# Qlobal Məqsədlər üzrə Qida Layihəsi

## Hər qabın öz tarixçəsi var

MƏQSƏD 1: YOXSULLUĞA SON
MƏQSƏD 2: SIFIR ACLIQ
MƏQSƏD 3: YAXŞI SƏHİYYƏ VƏ RİFAH
MƏQSƏD 4: KEYFİYYƏTLİ TƏHSİL
MƏQSƏD 8: LAYİQLİ ƏMƏK VƏ İQTİSADİ ARTIM
MƏQSƏD 9: SƏNAYE, İNNOVASİYA VƏ İNFRASTRUKTUR
MƏQSƏD 10: BƏRABƏRSİZLİYİN AZALDILMASI
MƏQSƏD 12: MƏSULİYYƏTLİ İSTEHLAK VƏ İSTEHSAL
MƏQSƏD 13: İQLİM DƏYİŞİKLİYİNƏ QARŞI MÜBARİZƏ
MƏQSƏD 14: DƏNİZ EKOSİSTEMİNİN MÜHAFİZƏSİ
MƏQSƏD 15: TORPAQ EKOSİSTEMİNİN MÜHAFİZƏSİ

## Fənn

Elm, Coğrafiya, Sosial elmlər, Dillər, Ədəbiyyat, Riyaziyyat

## Tədrisin nəticələri

Şagirdlər:

- Qlobal Məqsədlərin yaradılması prosesini və 2030-cu ilədək əldə olunacaq planları başa düşəcək
- Qlobal Məqsədlər və öz həyatları arasında əlaqə quracaq
- Təqdim olunan qidanı təhlil edəcək və Qlobal Məqsədləri dəstəkləyən alternativləri müəyyənləşdirəcək
- Məlumatı sintezləşdirmək və qida seçimləri və davranış vasitəsilə Qlobal Məqsədlərə çatmaq üçün fərdi vədini elan edəcəklər

## Dərsə hazırlıq

- Üç sənədin çap nüsxəsi (hər tələbəyə biri)
- Sinif otağı müzakirələri və birgə işi təşviq etmək üçün oturacaqların dairə və yaxud masa ətrafında qurulması ilə təşkil olunmalıdır
- Video təqdimat üçün video və audio avadanlıq tələb olunur
- Video və audio avadanlıq olmadıqda əvəzinə plakat nümayiş etdirilə bilər (Qoşma B)

## Dərsə hazırlıq

- Dayanıqlı İnkişaf Məqsədləri plakatı (Qoşma A)
- Videonun əvəzinə və yaxud ondan əlavə Qabımda nə var plakatı (Qoşma B) nümayiş etidirlməlidir
- Hər qabın öz tarixçəsi var məşğələsinin iş vərəgi (Qoşma C)
- “Mənim vədim” plakatı (Qoşma D)
- Yazı və rəsm üçün materiallar
- Video: https://vimeo.com/220663067, videonun mətni Qoşma F


THE GLOBAL GOALS For Sustainable Development
WORLD'S LARGEST LESSON
In partnership with unicef
Supported by
With thanks to

## Məqsəd və pedaqoqika

2015-ci ilin sentyabrında Birləşmiş Millətlər Təşkilatının 193 üzv dövləti ümumi olaraq 'Qlobal Məqsədlər' kimi tanınan Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) qəbul etmişdirlər. "2030 gündəliyi" növbəti 15 il ərzində ifrat yoxsulluğa son qoymaq, iqlim dəyişikliyinə və bərabərsizlikliklərə qarşı mübarizə aparmaq üçün 17 inkişaf yönümlü hədəfdən ibarətdir. Bu, hamı üçün daha yaxşı və davamlı gələcəyə yol açan tarixi bir razılaşma idi.

Yoxsulluğa son qoymaqdan (məqsəd 1) başlayaraq bərabərsizliklərin azaldılması (məqsəd 10) və ya iqlim dəyişikliklərinə qarşı mübarizəyə (məqsəd 13) qədər sahələri əhatə edən məqsədlər 2030-cu ilə qədər Məqsədlərə çatmaq üçün üzv dövlətləri və onların vətəndaşlarını hərəkətə sövq edən dəqiq və ölçüləbilən hədəflər ehtiva edir. Məqsədlərə dair daha ətraflı məlumat üçün aşağıdakılarlar tanış olun:

1. World's Largest Lesson vasitəsilə Qlobal Məqsədlər və mənbələrə dair bir saatlıq pulsuz Microsoft Educator Training onlayn kursundan faydalanın https://education.microsoft.com/courses-and-resources/courses/sdg

2. 2015-ci ilin 25 sentyabr tarixində qəbul olunmuş Birləşmiş Millətlər Təşkilatının qətnaməsi: http://www.un.org/ga/search/view_doc.asp?symbol=A/RES/70/1&Lang=E

"Hər qabın öz tarixçəsi var" dərsinin planı Qlobal Məqsədləri sinif otağına gətirmək və onları öyrənmək üçün müəllim və şəgirdlərin səylərini birləşdirmək üçün təlimat rolunu oynayır.

**Dərs "məqsəd" sözünün** şagirdlərə geniş mənada izah olunmasından və məqsədləri öz həyatlarında təsvir etmək üçün digər şəxslər, məkan və mühitlərlə şəxsi bağlılıqlarını qurmaqdan başlayır. Şagirdlər Qlobal Məqsədlərin mənasını və onların yaradılması tarixçəsini öyrənməklə mövzu ətrafında biliklərini artıracaqlar.

**Dərs müddətində** şagirdlər dialoq, əməkdaşlıq və təhqiqat prosesində iştirak edərək məsələni araşdırmağı öyrənəcək və qəbul etdikləri qidanın dayanıqlığının reallaşdırılmasını müəyyən edəcəklər. Öyrənmə prosesini qeydə almaq, müzakirəni yönəltmək və təlimatlar vermək üçün dərs müddətində müxtəlif dəlil və formativ qiymətləndirmə alətlərindən istifadə etmək olar.

**Dərsin sonunda** Qlobal Məqsədlərə dair təhsil və öyrənmə prosesinə verdikləri töhfəni əks etdirmək üçün müəllim və şagirdləri qlobal xəritənin yaradılmasına qatılmağa dəvət edirik.
http://worldslargestlesson.globalgoals.org/Map

Şagirdlər həmçinin Flipgrid vasitəsilə öyrəndiklərinə dair rəylərini də daxil edə bilərlər
https://flipgrid.com/globalvoice

Qlobal Məqsədlərə nail olunduğu təqdirdə, onlar gənclərin həyat və gələcəklərini dəyişəcək. Bundan əlavə, gənclər Məqsədlərə çatılma prosesinə əhəmiyyətli töhfə verə bilərlər. Odur ki, sizi və şagirdlərinizi tədris vasitəsilə bəşəriyyət və planet üçün müsbət dəyişiklik yaratmaq hərəkatında və "Hər qabın öz tarixçəsi var" adlı dərsdə "qlobal sinif otağının" iştirakçıları arasında salamlayırıq.

Qlobal Məqsədlər və dünya qida sistemlərinə aid mövzunun **mənimsənilməsini dərinləşdirmək və bilikləri artırmaq məqsədilə** dərsdən əlavə 5 araşdırma Fəaliyyəti də daxil olunub ki, müəllimlər həmin platformaya öz sinif otağını qoşub "Qlobal Əməkdaşlığın Genişləndirilməsi" çərçivəsində dünya ölkələri ilə öz təcrübəsini paylaşsınlar.

## Əsas anlayışlar

- Dayanıqlıq
- İnkişaf
- Məqsəd
- Vəd

## Formativ Qiymətləndirmə Metodları:

- Məqsədlərin müəyyənləşdirilməsi prosesinin mənimsənilməsi üzrə xülasə və cavablar
- Birgə və qrup işi çərçivəsində konsepsiyaya uyğun dilin və əsas anlayışların istifadə olunmasını sənədləşdirmək üçün yoxlama vərəqəsi
- Açıq cavab suallarına və araşdırma sorğularına şifahi və yazılı cavabların sənədləşdirilməsi
- Fəaliyyət vərəqlərindən istifadə etməklə vizual təqdimatlar/konsepsiyaların, inancların və təsəvvürlərin reytinqi
- Qlobal Məqsədlərə çatmaq üçün fərdi öhdəliklərə dair sübutları toplamaq üçün verilən vədləri yazılması

## ABŞ Təcrübə Standartları

Common Core Standards English Language Arts, (NGAC, 2010)
ISTE Standards for Students (ISTE, 2016)
National Curriculum Standard for Social Studies (NCSS, 2010) Next Generation Science Standards (NGSS, 2013)

## Müəlliflər haqqında

Hazırki dərs World's Largest Lesson #TeachSDGs arasında yaradılmış işçi qrupu tərəfindən işlənib hazırlanmışdır.

Xüsusi təşəkkürlər: Fran Siracusa, Calliope Global and #TeachSDGs Task Force and Dr. Jennifer Williams, Calliope Global and #TeachSDGs Task Force.


THE GLOBAL GOALS For Sustainable Development
WORLD'S LARGEST LESSON
In partnership with unicef
Supported by
With thanks to

# Hər qabın öz tarixçəsi var

## Əsas sual

Qabımda olan qidanın təhlilinə əsasən öz qida seçimlərimi dəyişməyə vəd verməklə Qlobal Məqsədləri necə dəstəkləyə bilərəm?

## Addım 1: İlkin bilikləri canlandırın

**5** dəq

Məqsədlərin yaradılması prosesini təqdim və müzakirə edin:

**1.** Müəllim olaraq seçdiyiniz məqsədi nümunə kimi paylaşın, həmin məqsədə çatmaq üçün təqib etdiyiniz prosesi təsvir edin. Məqsədlərin seçilməsi üçün aşağıdakı ümumi addımları paylaşın:

- Məqsədi müəyyən etmək
- Məqsədi vərəqə yazmaqla və digər şəxslə paylaşmaqla sənədləşdirmək
- Addımbaaddım plan tərtib etmək

**2.** Şagirdləri seçdikləri məqsədlərə və həmin məqsədlərə çatmaq üçün prosesə dair məlumat paylaşmağa dəvət edin.

## Addım 2: Qlobal Məqsədləri təqdim edin

**10** dəq

**1.** Dərsin məqsədini şagirdlərlə paylaşın.

**2.** Şagirdlərə çap olunmuş plakatı (Qoşma A) göstərməklə Dayanıqlı İnkişaf Məqsədlərini təqdim edin. Birləşmiş Millətlər Təşkilatının fəaliyyətini təsvir, habelə yoxsullağa son qoymaq, yer kürəsini qorumaq, və bütün insanların sülh və firavan həyatdan faydalanması üçün 2030-cu ilə qədər dünya səviyyəsində fəaliyyətə keçmək üçün 17 məqsədin seçilməsində dünya dövlətlərinin səylərini izah edin. Şagirdlərin məqsəd seçməsini və həmin məqsədlərə çatmasını əsas götürərək BMT-nin və dünya dövlətlərinin seçdikləri gündəliyə nail olmaq üçün sıx əməkdaşlığını izah edin.

Onun əvəzinə və yaxud ondan əlavə Qlobal Məqsədləri uşaqlar üçün uyğunlaşdırılmış tərzdə təqdim və təsvir edən Malala Yousafzai (https://vimeo.com/138852758) və ya Serena Villyamsın (https://vimeo.com/137728737) çəkildiyi videoları nümayiş etdirin.

**3. Dayanıqlıq, inkişaf** və **məqsədlər** sözlərini yazın və şagirdlərdən həmin sözlərin mənasını və müvafiq təriflərini paylaşmağı xahiş edin. Bundan əlavə, DİM qısaltmasını təqdim edin və onun “Qlobal Məqsədlər” ifadəsi ilə bərabər Dayanıqlı İnkişaf Məqsədlərinə istinad etmək üçün istifadə olunduğunu izah edin.


THE GLOBAL GOALS For Sustainable Development
WORLD'S LARGEST LESSON
In partnership with unicef
Supported by
With thanks to

## Addım 3: Qlobal Məqsədləri gündəlik həyatla əlaqələndirmək

5 dəq

Dayanıqlı İnkişaf Məqsədlərinə dair konseptual anlayışlar aşılanandan sonra şagirdlərə yaşından və yaşadığı yerdən asılı olmayaraq hər bir fərdin məqsədlərə çatmaqda rolunun olmasını vurğulayın. Sinifdəki şagirdlərin də əhəmiyyətli rol oynadıqlarını və ciddi dəyişikliklər etmək gücündə olduqlarını izah edin.

2030-cu ilə qədər Qlobal Məqsədlərə çatmaq üçün hər bir fərdin böyük töhfə verə biləcəyini şagirdlərə xatırladın və müxtəlif məqsədlərə şamil etmək üçün dünyada hər bir şəxsin gündəlik ata biləcəyi və ciddi təsir yaratmağa qadir addımlar haqqında soruşun. Təklifləri toplayın, və həmin addımın gündəlik qida qəbulu olmasını şagirdlərə açıqlamaqdan əvvəl, dərs mövzusunun qlobal qida sistemlərindən başlayaraq qablarımızdakı qidaya qədər qida dayanıqlığı olduğu haqqında məlumat verin.

## Step 4: Learning Activity: Food and the Global Goals

5 dəq

Şagirdləri üç eyni sayda olan qruplara bölün və hər qrupa aşağıdakı mövzulardan birini təyin edin:

(1) Dayanıqlıq
(2) İnkişaf
(3) Məqsədlər

Qida və Məqsədlər üzrə Video brifiniqi təqdim edin (https://vimeo.com/220663067). Qruplara təyin olunan mövzu ilə əlaqədar videoda paylaşılan fikirləri qeyd etməyi tapşırın. Fikirləri yapışqan vərəqə, kiçik kartların üzərinə və yaxud rəqəmsal cihazla qeydə almaq olar. Videonu şagirdləri nümayiş etdirin və müvafiq məqamlara diqqəti çəkin. Videodan sonra qrupları ilk əvvəl müzakirə etməyə və sonra öz nəticələrini bütün siniflə paylaşmağa dəvət edin. Yaranan fikirlər arasında mümkün əlaqələri qeydə alın və videoda nümayiş etdirilən Məqsədləri vurğulayın.

## Addım 4: Tədris prosesi: Qida və Qlobal Məqsədlər

Videonu nümayiş etdirmək mümkün olmadıqda plakatdan (Qoşma B) istifadə edin və ya videonun mətnini oxuyun (Qoşma F) və şagirdlərdən eyni yanaşmadan istifadə edərək plakatda göstərilən məsələlərin təyin olunmuş sözlərlə əlaqəsinin müəyyən edilməsini xahiş edin.

(1) Dayanıqlıq
(2) İnkişaf
(3) Məqsədlər

Discuss the way that the Goals highlighted link to the issues they sit beside on the poster.

## Addım 5: “Qabımın tarixçəsi” sorğusunu təqdim edin

5 dəq

Şagirdlərə “Hər qabın öz tarixçəsi var” (Qoşma C) məşğələsinin iş vərəgini nümayiş etdirin. Şagirdlərə məşğələ zamanı seçilən qida və yaxud yeməyi araşdırmağı və onun tarixçəsini müəyyən etməyi tapşırın. İzah edin ki, ilk əvvəl şagirdlər ixtiyari bir qidanı (məs. ən sevimli, ən son və yaxud gündəlik yeməyi) nümayiş etdirməli və yaxud şəklini çəkməli və sonra seçdikləri yemək əsasında sorğu vərəgini doldurmalıdırlar. Verilən beş sualı ucadan oxuyun, şagirdlərə iş vərəginə əlavə olunmuş qeydləri oxumağı və suala tam dəqiq cavab verə bilmədikləri təqdirdə öz bilikləri əsasında ən düzgün qərarı verməklərini tapşırın.

Bundan əlavə, xəritə, internet səhifə və kitablar kimi resurslar şagirdlərə cavabları verməkdə yardımçı ola bilər. Şagirdlərdən VƏD hissəsini sonradan doldurmaq üçün hələlik boş saxlamağı xahiş edin.

## Addım 6: Tədris Prosesi: "Qabımın tarixçəsi"

25 mins

### Sorğu vərəginin doldurulması

DİM-lər üzrə plakatı (Qoşma A) və iş vərəglərini (Qoşma C) paylayın. Sualları yaranan və yaxud əlavə təlimata ehtiyacı olan şagirdərə yardımçı olun.

### Təhlil və Düşünmə

Şagirdlər sorğu vərəgini doldurandan sonra onlara "Qabımın tarixçəsi" adlı plakatı (Qoşma D) paylayın. İş vərəgindəki cavablara və müəyyən edilmiş qlobal məqsədlərə əsasən qidanın təhlili üçün şagirdlərə iki-iki işləmək imkanı yaradın. Onları "Mən nəyi fərqli edə bilərəm?" və "Mən nə deməliyəm?" sualları ətrafında düşünməyə vadar edin. Cavabları ümumi plakatda və yaxud vahid rəqəmsal sənəddə əks etdirmək olar (məsələn Padlet, Word online və ya OneNote).

### Vəd

Vəd sözünü və onların məqsədlərə çatmaqla əlaqəsini təqdim edin. Formal vədin yaranmasında məşğələnin cavablarından necə istifadə oluna biləcəyini müzakirə edin. Şagirdlər vədlərlə əlaqədar müxtəlif fikirlərini paylaşa bilərlər.

İş vərəgini tam doldurmaq üçün şagirdlərdən vədlərini müəyyən edib, formal şəkildə yazmaqlarını xahiş edin. Bundan sonra onlar DİM-lər plakatından istifadə edərək öz vədlərinin həsr olunduğu müvafiq məqsədi seçə bilərlər.

Şagirdlər tədris prosesi və öz vədlərini digərləri ilə də paylaşa bilərlər https://flipgrid.com/globalvoice

Habelə şagirdlər fərdi və yaxud qrup şəklində öz dərslərini və vədlərini qlobal xəritədə də qeyd edə bilərlər https://worldslargestlesson.globalgoals.org/Food

## Addım 7: Dərsin sonu

5 mins

Dərsin sonunda dərsin mövzusu və məqsədlərin seçilməsinə dair müzakirənin xülasəsini təqdim edin. Vədlər veriləndən sonra şagirdləri öz fəaliyyətlərini nəzərdən keçirməyə dəvət edin və qlobal məqsədlərə dair öhdəliklərini ailə üzvləri və dostlarla paylaşmağa çağırın.

Vədlərin nəzərdən keçirilməsi və əldə olunan nailiyyətləri nəzərdən keçirmək üçün tarixə dair razılığa gəlin.

Müzakirələrin davamını və yeni ideyaların yaranmasını sövq etmək üçün iş vərəqlərini sinif otağının divarlarına yerləşdirin.


THE GLOBAL GOALS For Sustainable Development
WORLD'S LARGEST LESSON
In partnership with unicef
Supported by
With thanks to

# Fəaliyyət

## Qlobal Əməkdaşlığın Genişləndirilməsi

Şagirdləri dünyanın müxtəlif yerlərindəki sinif otaqları ilə qoşmaqla müəllimlər mövzunun mənimsənilməsini və perspektivlərini daha da genişləndirə bilərlər. Əlaqə qurmaq üçün Dünyanın Ən Böyük Dərs xəritəsinə qoşulmaq http://worldslargestlesson.globalgoals.org/Map və xəritə vasitəsilə digərlərini müəyyən etmək vasitəsilə mümkündür.

**Sosial mediada aşağıdakı həştaqlar vasitəsilə əlaqə qura bilərsiniz:**

#WorldsLargestLesson
#TeachSDGs
#GlobalGoals

**World´s Largest Lesson- da həştaqda istifadə edin:**

@TheWorldsLargestLesson
@TheWorldsLesson
@theworldslesson

Dərsiniz haqqında məlumatın paylaşmağın yolları:

- Tapşırıq üzərində işləyən şagirdlərin və iş vərəginin şəkilləri;
- Öz vədlərini səsləndirən şagirdlərin videoları;
- Digər siniflərdən e-poçt, Skype və ya birgə forum vasitəsilə öz təcrübələrini paylaşmaq üçün müraciət

Dünyanın digər nöqtələri ilə qlobal əməkdaşlıq çərçivəsinə qoşulan şagirdlər mövcud layihələr və öyrənmə fəaliyyəti vasitəsilə birgə həllər üzərində işləyə bilərlər.

## Təşəkkür və Mənbələr


International Society for Technology in Education (2016). ISTE Standards for Students. Eugene, Oregon: International Society for Technology in Education.

National Council for the Social Studies (2010). National Curriculum Standards for Social Studies: A Framework for Teaching, Learning, and Assessment. Silver Spring, MD: NCSS.

National Governors Association Center for Best Practices, Council of Chief State School Officers. (2010). Common Core State Standards (CCSS). Washington, D.C.: National Governors Association Center for Best Practices, Council of Chief State School Officers.

NGSS Lead States (2013). Next Generation Science Standards: For States, By States. Washington, DC: The National Academies Press.

United Nations General Assembly (2015). Transforming Our World. The 2030 Agenda for Sustainable Development. NY, NY: United Nations.




THE GLOBAL GOALS For Sustainable Development · WORLD'S LARGEST LESSON · In partnership with unicef · Supported by · With thanks to


Dayanıqlı İnkişaf üzrə
QLOBAL MƏQSƏDLƏR
MƏQSƏD 1: YOXSULLUĞA SON
MƏQSƏD 2: SIFIR ACLIQ
MƏQSƏD 3: YAXŞI SƏHİYYƏ VƏ RİFAH
MƏQSƏD 4: KEYFİYYƏTLİ TƏHSİL
MƏQSƏD 5: GENDER BƏRABƏRLİYİ
MƏQSƏD 6: TƏMİZ SU VƏ SANİTARİYA
MƏQSƏD 7: SƏRFƏLİ VƏ TƏMİZ ENERJİ
MƏQSƏD 8: LAYİQLİ ƏMƏK VƏ İQTİSADİ ARTIM
MƏQSƏD 9: SƏNAYE, İNNOVASİYA VƏ İNFRASTRUKTUR
MƏQSƏD 10: BƏRABƏRSİZLİYİN AZALDILMASI
MƏQSƏD 11: DAYANIQLI ŞƏHƏRLƏR VƏ İCMALAR
MƏQSƏD 12: MƏSULİYYƏTLİ İSTEHLAK VƏ İSTEHSAL
MƏQSƏD 13: İQLİM DƏYİŞİKLİYİNƏ QARŞI MÜBARİZƏ
MƏQSƏD 14: DƏNİZ EKOSİSTEMİNİN MÜHAFİZƏSİ
MƏQSƏD 15: TORPAQ EKOSİSTEMİNİN MÜHAFİZƏSİ
MƏQSƏD 16: SÜLH, ƏDALƏT VƏ SƏMƏRƏLİ İNSTİTUTLAR
MƏQSƏD 17: MƏQSƏDLƏR ÜÇÜN TƏRƏFDAŞLIQ
THE GLOBAL GOALS
For Sustainable Development

## Qoşma B: Qabımda nə var? Plakat



## Qoşma C: Hər qabın öz tarixçəsi var məşğələsinin iş vərəgi

# HƏR QABIN ÖZ TARİXÇƏSİ VAR

WORLD'S LARGEST LESSON

Ad

Class

Hansı ölkəni təmsil edirsiniz?

Bayrağınızı çəkin.

UNİCEF-lə əməkdaşlıqda

unicef

UNESCO-ya təşəkkürlər



Toplam xal

Qeyd yeri



Qlobal Məqsədlərə dair mənim vədim ….

“

...#WorldsLargestLesson”

…. saylı Qlobal Məqsədə çatmaq üçün

# İŞ VƏRƏQİNİZİ DOLDURMAQ ÜÇÜN TƏLİMAT

Yoxlamaq istədiyiniz qidanı seçin. Bu, ən sevimli, bu gün və yaxud son günlərdə yediyiniz bir yemək ola bilər. Onun rəsmini və ya fotosunu çəkməyə hazır olun.

Sualların cavablarına gəldikdə tam məlumatın olmamasından narahat olmayın. Ehtiyac olduqda biliklərinizə əsasən ən düzgün təxmini edin. Əsas vəzifə yediyiniz qida və onun Məqsədlərə əlaqəsini haqqında düşünməkdir.

UNİCEF-lə əməkdaşlıqda

UNESCO-ya təşəkkürlər

### 1. Qabındakı neçə məhsulun tərkibində emal olunmuş şəkər var?

Əsas terminlər: ‘emal olunmuş şəkər,’ ‘rafinadlaşdırılmış’ və ya ‘sərbəst’ şəkər kimi adlandırılan və meyvə, tərəvəz və digər qidaların tərkibində mövcud olan ‘təbii şəkərdən’ fərqli olaraq qida məhsullarına əlavə olunan maddəni əks etdirir. Bu cür şəkərin böyük həcmdə istifadəsi diabet (şəkər xəstəliyi) də daxil olmaqla dünyanın müxtəlif yerlərində yaşayan uşaq və gənclər arasında bir sıra xəstəliklərin artmasına səbəb olur.
Bəzi qida məhsulları zahirən sizin üçün faydalı görsənə bilər, lakin tərkibinə baxdıqda böyük həcmdə şəkərin qatıldığını görə bilərsiniz.

Növbəti addımların ardıcıllığı:

Məqsədin müəyyən edilməsi:
Qlobal Məqsədlər plakatına baxın və sualın hansı məqsədlə əlaqədar olması haqqında düşünün. Sualın birdən artıq məqsədlə bağlılığı ola bilər. Bütün suallar üçün eyni yanaşmadan istifadə edin.

Qabınıza uyğun xalları təyin edin:
Tərkibini öyrənmək üçün seçdiyiniz qida məhsulunun bağlamasına baxın və yaxud yeməyi bişirən şəxsdən onun tərkibini öyrənin. Hətta yemək evdə hazırlansa belə, bir qism məhsulların içində şəkər ola bilər. Rafinadlaşdırılmış şəkər müxtəlif formalarda ola bilər və adətən şirinləşdirici, dekstroz, bal, qarğıdalı şərbəti, sükroz, fruktoza, qlükoza, bəhməz kimi adlar altında təqdim olunur.

Qidanızın təmamilə şəkərsiz olduğuna əminsinizsə yaşıl halqanı (smiley) seçin. Qidanızda şəkərin az (bir çay qaşığı və ya 4 qram) olmasını düşündükdə sarı halqanı seçin. Əgər yeməyinizdə dörd qramdan artıq şəkər varsa, qırmızı halqanı seçin.

| | | |
|---|---|---|
| 1. Qabda tərkibində rafinadlaşdırılmış şəkər olan neçə qida növü var?<br>0 1 2+ | | |

### 2. Qablaşdırılmış yeməyinizin hansı hissələri plastik qablaşdırma içində idi?

Qidanın hansısa hissələri plastik qablaşdırma içində idi? Were the ingredients wrapped in any kind of plastic? Bu, şəffaf paket, yapışkan lent və ya folqa, plastik qab və ya fincan ola bilər. İçkiniz üçün plastik çubuqdan istifadə etdinizmi? Yemək zamanı neçə növ plastik əşyanın istifadə olunduğunu hesablayın.

### 3. Qabımdakı neçə qida növü istifadə olunmadan zibilə atılmışdır?

Qabınızda yediyinizdə daha artıq yemək var idi? Yeməyin artığını sonra yemək üçün saxladınız və ya evə apardınız, və ya atdınız? İstifadə olunmamış və atılan yeməyin yemək qaşığı təxmini sayını hesablayın.


THE GLOBAL GOALS For Sustainable Development
In partnership with · Supported by · With thanks to

### 4. Qabdakı qidanın neçəsi ölkənizin istehsal etdiyi qida növüdür?

Yeməyin tərkibində inqrediyentlər haqqında düşünün və mümkün olduqda qablaşdırmanı yoxlayın. Yeməyi alan şəxsdən tərkibi soruşun. Yediyiniz meyvə və tərəvəz mövsümə uyğun olmadıqda, çox güman onları digər ölkədən gətiriblər. Yediyiniz ət və ya balıq növü yaşadığınız ərazidə geniş yayılmayıbsa, o zaman onu da idxal ediblər. Qidanın tərkibinə dair biliklərinizə əsasən ehtimallar qurun.

### 5. Qabdakı qidanın neçəsi ölkənizin istehsal etdiyi qida növüdür?

Qarşınızdakı qidanı hazırlayan insanlara qarşı münasibət haqqında düşünün.

Qarşınızdakı qida hər hansı iri brend və ya şirkət tərəfindən istehsal olunub? Həmin şirkətin internet səhifəsinə daxil olun və insan hüquqları, ayrı-seçkiliyə və ya bərabərsizliyə qarşı hər hansı sənədin olub-olmamasını yoxlayın. Eynisi ilə, qidanı aldığınız supermarketin də internet səhifəsini yoxlayın. Onların işçilərə qarşı ədalətli yanaşmasını düşünürsünüzmü? Şirkətin və ya supermarketin sənədi gender, etnik mənsubiyyət, cins, əlillik və yaşlar əlaqədar hansı yanaşmanı sərgiləyir?

Və ya həmin mallar bazardan və ya birbaşa fermerdən alındığı təqdirdə onları növbəti dəfə görəndə onlara oxşar sualların verilməsini düşünün.
Toplanan məlumata əsasən cavabı təxmin edin və müvafiq halqanı işarələyin.

- Bəli, əminəm ki, məcburi əmək və (gender, etnik, cinsi, əlilllik, yaş və ya digər səbəblərdən) ayrı-seçkilik halı olmayıb
- Bəli, lakin mən qidanın hazırlanma prosesinin yalnız bir hissəsinə əminəm
- Xeyr, onlara qarşı ədalətsiz və ya dəqiq deyə bilmərərm

Ümumi xalları necə hesablamalı:

1. Hər bir bənd üzrə neçə halqanı işarələdiyinizi hesablayın; hər bənd üzrə cəmini son sırada yazın.

Toplam xalı hesablamaq üçün layihənin təlimatına riayət et...

2. Hansı halqaların sayı daha çoxdur?
Aşağıdakı qaydaya uyğun olaraq öz toplam xalınızı hesablayın və xala uyğun olaraq müvafiq halqanı rəngləyin.

| |
|---|
| Əsasən (yaşıl) |
| Eyni sayda (yaşıl) və (sarı) |
| Eyni sayda (yaşıl) və ya (qırmızı) daha çox (sarı) |
| Eyni sayda (sarı) və (qırmızı) |
| Əsasən (qırmızı) |





THE GLOBAL GOALS For Sustainable Development
WORLD'S LARGEST LESSON
In partnership with unicef
Supported by
With thanks to

# HƏR QABIN ÖZ TARİXÇƏSİ VAR

Aşağıdakı sualları cavablandırın və hər bir suala xal verin.
Qaydalar üçün layihənin təlimatına müraciət edin.

WORLD'S LARGEST LESSON

UNİCEF-lə əməkdaşlıqda unicef

UNESCO-ya təşəkkürlər

| | Bunlar ........ saylı məqsəd (lərə) aiddir | |
|---|---|---|
| 1. Qabınızdakı neçə inqrediyentin tərkibində rafinadlaşdırılmış şəkər var?<br>0 · 1 · 2+ | | |
| 2. Qablaşdırılmış yeməyinizin hansı hissələri plastik qablaşdırma içində idi?<br>0 · 1 · 2+ | | |
| 3. Qabımdakı neçə qida növü istifadə olunmadan zibilə atılmışdı?<br>Heç nə atılmayıb · 1-2 yemək qaşığı · 3+ yemək qaşığı | | |
| 4. Qabdakı qidanın neçəsi ölkənizin istehsal etdiyi qida növüdür?<br>Hamısı · Bəziləri · Heçbiri | | |
| 5. Qidanı hazırlayan insanlara qarşı ədalətli davranış olubmu?<br>Bəli, əminəm ki, ədalətli olub<br>Bəli, lakin mən qidanın hazırlanma prosesinin yalnız bir hissəsinə əminəm<br>Əmin deyiləm | | |

Toplam xalı hesablamaq üçün layihənin təlimatına riayət et...



THE GLOBAL GOALS For Sustainable Development
WORLD'S LARGEST LESSON
In partnership with unicef
Supported by
With thanks to

# Qoşma F: “Hər qabın öz tarixçəsi var” filminin mətni

Salam. Qlobal məqsədləri xatırlayırsanmı? Bu məqsədlər 2030-cu ilə qədər yoxsulluq və bərabərsizliyi azaltmaq, iqlim dəyişikliyini dayandırmaq üçün qarşıya qoyulmuşdur. Onlara nail olsaq, bu hamımızın həyatını yaxşılaşdıracaq.

Nəticə etibarı ilə sənin evin, məktəbin, paltarın və hətta yeməyin – hamısı qlobal məqsədlərlə bağlıdır. Əslində qabındakı yemək qlobal məqsədlər haqqında sənə çox sey deyə bilər. Sənin nahar yeməyin sənə çox şey öyrədə bilər.

Nə vaxtsa yediyin yeməyin kim tərəfindən hazırlandığını düşünmüsənmi? Yox -  səni, valideynlərini və ya məktəb aşbazını demirəm. Onlardan da əvvəl. Qidanın becərdilməsi, emalı və qablaşdırılmasında kim iştirak edir? Onlar haqqında nə bilirsən?

Yeməyin sənə çatmamışdan əvvəl etdiyi səyahət haqqında nə bilirsən? Qəribədir, amma böyük ehtimalla məhsulun sənə çatması üçün keçdiyi məsafə sənin bir il ərzində keçdiyin məsafədən çoxdur. İndi təsəvvür edin ki,  bu qidanın bir hissəsi zibilliyə atılır.

Yemək qabına çatdıqda  isə sual yaranır – bu sənin üçün kifayətdirmi? Məktəbdən oxumaq üçün tələb olunan enerjini verirmi? Bu hamı üçün vacibdir.

Beləliklə, dərindən fikirləşsən, yediyin hər bir məhsulun arxasında Qlobal məqsədlərlə bağlı hekayəsi var. Buna görə, səni əyləncəli bir layihədə iştirak etməyə dəvət edirəm. Sadədir. Qlobal məqsədlər üzrə tədqiqatçı ol və bir yemək seçərək onu təhlil et və qiymətləndir.

Etdiyin qiymətləndirməni bizimlə bölüş və dünyanın başqa yerlərində yeməklərə verilən xalları öyrən.

Əsası isə, öz qiymətini yaxşılaşdırmaq üçün nə edə biləcəyini və qlobal məqsədlərə necə töhfə verə biləcəyini düşünməlisən.


THE GLOBAL GOALS For Sustainable Development
WORLD'S LARGEST LESSON
In partnership with unicef
Supported by
With thanks to